təmiz şəhər

**"TƏMİZ ŞƏHƏR" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

# ƏMR

№ F-66

Bakı şəhəri "03" iyun 2019

"Təmiz Şəhər" ASC-də "Apelyasiya Şurası"nın yaradılması və fəaliyyətinin tənzimlənməsi haqqında

"Dövlətə məxsus hüquqi şəxslərdə apelyasiya şuralarının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 6 may 2019-cu il tarixli 681 nömrəli Fərmanının 1-ci bəndinə əsasən, sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin şikayətlərinə baxılmada şəffaflığın, obyektivliyin və operativliyin təmin edilməsi, bu sahədə həmin şəxslərin hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsi məqsədi ilə

**əmr edirəm:**

1. "Təmiz Şəhər" ASC-də ("Cəmiyyət") Apelyasiya Şurası ("Şura") yaradılsın.
2. "Apelyasiya Şurası haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).
3. Əsasnaməyə uyğun olaraq, Şuranın tərkibi aşağıdakı kimi təsdiq edilsin:

**Şuranın sədri:**

| | |
|---|---|
| Sabit Zeyniyev | İdarə Heyətinin sədr müavini |

**Şuranın üzvləri:**

| | |
|---|---|
| Orxan Hüseynov | Layihələrin idarəolunması və ictimayyətlə əlaqələr şöbəsininmüdiri v.m.i.e |
| Məmməd Sadıxzadə | Texniki şöbənin |
| Mirzə Laçınov | Hüquq şöbəsinin müdir müavini |
| Arif Kərimov | Bərk məişət tullantılarının utilizasiyası şöbəsinin müdiri müavini |
| Fariz Əhmədov | Balaxanı Sənaye Parkının sahə rəisi |
| Ramin Mahmudov | Layihələrin idarə olunması və ictimayyətlə əlaqələr şöbəsinin mütəxəssisi |

4. Şuranın cari fəaliyyətinin təşkili üçün Şuranın Katibliyi ("Katiblik") yaradılsın və tərkibi aşağıdakı kimi təsdiq edilsin:

**Katibliyin rəhbəri:**

Rəna Fətullayeva — Ümumi işlər şöbəsinin müdiri

**Katibliyin üzvləri:**

Elmar Məlikov — İctimaiyyətlə əlaqələr sektorunun müdiri

Tofiq Mansurov — Ümumi işlər şöbəsinin baş mütəxəssisi

5. Şuraya tapşırılsın:

5.1. Şura öz fəaliyyətini qanunçuluq, şəffaflıq, kollegiallıq və qərəzsizlik prinsipləri əsasında qursun və şikayətlərə baxarkən bu prinsipləri rəhbər tutaraq "Dövlətə məxsus olan hüquqi şəxslərdə apelyasiya şuralarının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanından və "Apelyasiya Şurası haqqında Əsasnamə"dən irəli gələn tədbirləri həyata keçirsin.

5.2. Cəmiyyətdə fiziki və hüquqi şəxslərin şikayətlərinə baxılmada şəffaflığın, obyektivliyin və operativliyin təmin edilməsi, bu sahədə şəxslərin hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsi məqsədilə təxirəsalınmaz tədbirlər həyata keçirsin.

5.3. Şuraya daxil olan şikayətlərin həlli üzrə tədbirlər görsün və həmin tədbirlərin həyata keçirilməsinə nəzarət etsin.

5.4. Baxılan şikayətlərin uçotunun aparılmasını, təhlilini, ümumiləşdirilməsini təmin etsin və öz fəaliyyəti barədə Cəmiyyətin İdarə Heyətinin sədrinə və tələb olunan formada Azərbaycan Respublikasının Prezidenti yanında Apelyasiya Şurasına ildə 2 (iki) dəfə (iyul ayının 15-dək və yanvar ayının 15-dək) yarımillik və illik arayışlar (hesabatlar) təqdim etsin.

6. Katibliyə tapşırılsın:

6.1. Şuraya daxil olan müraciətlərlə əlaqədar təşkilati tədbirləri həyata keçirsin;

6.2. Şuraya daxil olan şikayətlər barədə zəruri məlumatların tələb olunan qaydada "Elektron hökumət" portalındakı "Dövlətə məxsus olan hüquqi şəxslərin apelyasiya şuralarına müraciətlərin elektron qəbulu sistemi"nə daxil edilməsini, habelə Şuranın iclaslarında baxılan məsələlər barədə məlumatın Cəmiyyətin rəsmi internet saytı vasitəsilə yayılmasını təmin etsin.

7. Bu əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

8. Əmrin aidiyyatı şəxslərə çatdırılması Ümumi işlər şöbəsinin müdiri Rəna Fətullayevaya həvalə edilsin.

Əsas: "Dövlətə məxsus olan hüquqi şəxslərdə apelyasiya şuralarının yaradılması haqqında" iqtisadiyyat nazirinin 07.05.2019-cu il tarixli İN-D/O 8727/2019 nömrəli dərkənarı.

**İdarə Heyətinin sədri:** **Etibar Abbasov**